# ŞENGEN VİZA PROSEDURU
# ADDIM-ADDIM SÜRƏTLİ BƏLƏDÇİ

1. Ərizə formasını ONLINE qeydiyyat edin
2. Görüş vaxtınızı online götürün
3. Sənədlərinizi Səfirliyin məlumat vərəqələrinə (fact sheets) uyğun hazırlayın
4. Sənədlərinizi şəxsən təqdim edin (yalnız görüşlə):
   İsveçrə Səfirliyi, Nizami küçəsi 96 E (Landmark I), Bakı







## 1. Online Viza Sistemi

Ərizə formasını PDF formatında yüklədikdən sonra lütfən, əmin olun ki, “next” düyməsini basmısınız və viza rüsumu haqqında suala çatmısınız (kredit kartla və ya nağd ödəniş). Daha sonra siz “next” düyməsini basaraq öz seçiminizi təsdiqləməli və qeydiyyat prosesini başa çatdırmalısınız.

Turizm: əgər Şengen ərazisində birdən çox oteldə qalacaqsınızsa “+” düyməsinin köməyi ilə digər otellər haqqında məlumatı da əlavə edin.

Ərizə formalarını yalnız kağız formatında (online deyil) doldurmaq istəyən ərizəçilər e-mail vasitəsi ilə müraciət etməlidirlər. Online ərizə forması dolduranlara üstünlük veriləcəkdəir.

## 2. Görüş

Görüş vaxtını yalnız eyni zamanda online viza ərizə forması doldurduqda götürmək olar.

Növbəti 14 gün üçün görüş vaxtı yoxdursa, lütfən, baku.visa@eda.admin.ch ünvanına e-mail yazın və birbaşa görüş götürmək üçün Səfirliyin saytında tələb olunan məlumatları təqdim edin:

1. Ərizə formasının online İD nömrəsi
2. Pasportun surəti
3. Səfərin məqsədi
4. Səyahət tarixi

Lütfən, bu müraciətə hər hansı başqa sənəd əlavə etməyin.

Viza bölməsi lazım bildiyi qaydada görüş tarixi vermək hüququnu özündə saxlayır. Odur ki, spam qovluğu da daxil olmaqla e-mail ünvanınızı mütəmmadi yoxlayın.




## 3. Təqdim olunacaq sənədlər, digər məlumatlar

Lütfən, əmin olun ki, görüş günü saytda qeyd olunan Səfirliyin Viza Məlumat vərəqəsinə uyğun olaraq **tam toplanmış** faylı təqdim edəsiniz.

## Çevik linklər

Online ərizə

Görüş

Ümumi viza məlumatları

Məlumat vərəqələri C vizası (qısa müddətli)

Məlumat vərəqələri D viza (uzun müddətli)